**Füzuli rayonunda fəaliyyəti məhdudlaşdırılan ət kəsimi məntəqəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(6 iyun 2024)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Füzuli rayonu, Əhmədbəyli kəndində fəaliyyət göstərən ət kəsimi məntəqəsində yoxlama həyata keçirilib.

Yoxlama zamanı sanitar-gigiyenik və sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu müəyyən olunub. Belə ki, məntəqənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, satışa təqdim edilən ətlərin müvafiq müşayiətedici sənədlərə malik olmadığı, işçi heyətin dövri tibbi müayinələrdən keçirilmədiyi və xüsusi geyimlə təmin edilmədiyi, əlyuma çanaqlarının mövcud olmadığı, havalandırma sistemlərinin quraşdırılmadığı, istifadə edilən alət və avadanlıqların təmizlənmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq sahibkar barəsində inzibati protokol tərtib edilib, məntəqənin fəaliyyəti məhdudlaşdırılıb.